**Sevinc Ağavəli ALLAHYAROVA**
Bakı Dövlət Universiteti, Psixologiya kafedrasının dosenti
E-mail: allahyarova68@mail.ru

**Afaq Arif MƏMMƏDOVA**
Xəzər Universiteti, Klinik Psixologiya, Psixologiya departamentinin magistrı
E-mail: afaqmammadova02@gmail.com

# AİLƏDAXİLİ ABUZİV MÜNASİBƏTLƏRİN FORMALAŞMA MEXANİZİMLƏRİ: PSİXOLOJİ FENOMEN KİMİ YANAŞMA

**Xülasə**

Məqalə ailədaxili abüziv münasibətlərin (məişət zorakılığı) formalaşma mexanizmlərini psixoloji fenomen kimi araşdırır. Fenomenologiya vasitəsilə qurbanların və zorakılıq törədənlərin yaşanan təcrübələri mərkəzə alınır. Bundan başqa zorakılığın subyektiv mənası, mahiyyəti və gündəlik həyatda necə qurulduğunu təhlil edilir. Araşdırmalarda əsas zorakılığın mexanizmlər müəyyən olunmuş və əsas olaraq nəsildən-nəslə keçən zorakılıq dövrü, travmatik bağlanma, güc və nəzarət, Bowlby-nin bağlanma nəzəriyyəsi, özünü idarəetmənin zəifləməsi və zorakılığın normallaşdırılması göstərilmişdir. Ümumi Aqressiya Modeli (ÜAM) və Dutton-un abüziv şəxsiyyət modeli kimi nəzəriyyələr əsasında mexanizmlərin təhlili aparılmışdır. Məqalədə problemin aktuallığı vurğulanaraq fenomenoloji əsaslı tövsiyələr verilir.

**Açar sözlər:** ailədaxili zorakılıq, bağlanma nəzəriyyəsi, nəsildən-nəslə keçmə, güc və nəzarət, ümumi aqressiya modeli.

**UOT:** 159.922.1:316.362
**JEL:** D91, J12, I31
**DOI:** https://doi.org/10.54414/QCXS4832

## Giriş

Ailədaxili abüziv (məişət zorakılığı) münasibətlər psixoloji, iqtisadi, fiziki, cinsi kimi formalarda özünü göstərən mürəkkəb bir psixo-sosial fenomendir. Münasibətlərdə özünü təkcə açıq aqressiya formasında deyil, həm də nəzarət, manipulyasiya, emosional aslılıq və güc balansının pozulmasına çevrilərək gündəlik həyatın bir hissəsi olur. Beləliklə də zorakılıq hadisə olmaqdan çıxaraq münasibətin daxilində qurulan davamlı bir mexanizm halını alır. Bu kimi zorakı münasibətlərin olmasıda təkcə fərdə zərər vermir, həm də nəsillər boyu davam edir. Zorakı halların davam etməsi də cəmiyyətin psixoloji sağlamlığını ciddi şəkildə təhdid edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına əsasən hər üç qadından biri fiziki və ya cinsi zorakılığa məruz qalır [18]. Psixoloji zorakılıq daha gizli formada yayılır və uzun müddət ərzində aşkarlanmır [9].

Ailədaxili abüziv münasibətlərin formalaşma mexanizmlərinin izahı müxtəlif nəzəriyyələrlə verilmişdir. John Bowlby tərəfindən irəli sürülən erkən bağlanma nəzəriyyəsi burada erkən bağlanma təcrübələrinin münasibətlərə təsiri öyrənilir. Lenore Walker tərəfindən isə zorakılıq dövrü modeli ilə zorakılığın dövrü xarakterizasiyası verilir [17]. Ümumi Aqressiya Modeli əsasında aqressiv davranışın koqnitiv və affektiv komponentləri sistemləşdirlimişdir.

## Əsas hissə

### Ailədaxili zorakılığın formalaşmasında nəzəriyyələrin rolu

Ailədaxili zorakılığın formalaşması təsadüfü və ya yalnız şəxsin “xarakter”ində olan problemlərdən qaynaqlanmır. Bu proses çoxsəviyyəli mexanizmlərlə, davranış modelləriylə və bağlanma təcrübələrinin qarşılıqlı təsirindən

yarana bilir. Ailədaxili zorakılığın formalaşması dedikdə aşağıdakı istiqamətlər diqqətimizi çəkir.

**Sosial öyrənmə nəzəriyyəsi**

İlk dəfə Albert Banduranın irəli sürdüyü sistemli nəzəriyyədə vurğulandığı kimi uşaqlar davranışları müşahidə vasitəsilə öyrənirlər. Ailədaxilində zorakılığı görən uşaqlar bu davranışın normal olduğunu düşünərək mənimsəyir və yetkinlik dövürlərində eyni davranışları təkrarlamağa meylli olurlar. Bu proses modelləmə və gücləndirmə kimi mexanizmlər vasitəsilə baş verir, yəni şəxs zorakılığı "mükafatlandırılan" davranış olaraq qəbul edir. Banduranın məşhur Bobo təcrübəsi vasitəsilə uşaqların aqressiv davranışları böyüklərdən öyrəndikləri və təqlid etdikləri məlum olmuşdur və bu da ailədaxili zorakılığın nəsildən-nəslə keçməsini izah edir [3]. Empirik tədqiqatlar da göstərir ki, zorakılıq görən uşaqlar yetkinlik dövürlərində ya zorakılıq törədən, ya da qurban pozisiyasında olur, bu da nəsildən-nəslə keçmə modelinin əsasını gücləndirir [7]

**Aqressiya nəzəriyyəsi**

Ümumi Aqressiya Modeli (ÜAM) aqressiv davranışı situasiyadan aslı və fərdi xüsusiyyətlərin qarşılıqlı təsir nəticəsində meydana gələn proses kimi izah edir [2]. Bu modeldə aqressiya bir başa baş vermir və mərhələli şəkildə formalaşır. Bu proses üç əsas mərhələdə baş verir:

- **Giriş faktorları.** Giriş faktorları situasiya əsaslı (təhqir, qısqanclıq, təhrik etmə) və şəxsiyyət əsaslı (impulsivlik, sosial öyrənmə, keçmiş travma) kimi amillərdən ibarətdir.
- **Daxili vəziyyət.** Bu mərhələyə emosional (qəzəb, inciklik), koqnitiv (aqressiv düşüncələr, şübhə, "mənə hörmətsizlik edildi" kimi interpretasiya) və fizioloji oyanma (adrenalin artımı) kimi komponentlər daxildir.
- **Qiymətləndirmə və qərar.** Sonuncu mərhələdə isə əgər özünüidarəetmə zəifdirsə, impulsiv aqressiv davranış müşahidə olunur əks halda isə qeyri-aqressiv davranışlar müşahidə olunacaq.

ÜAM-i ailədaxili kontekstdə aqressiv davranışı stress və emosional gərginliyə verilən cavab reaksiyası kimi izah edir. Model əsasında münasibətlər zamanı yaranan konfliktlər ("qısqanclıq", "aldatma şübhəsi", "rədd edilmə") yaxın mexanizmlər kimi çıxış edir və özünü idarəetmənin zəifləməsin səbəb olur [6]. Beləliklə də, ÜAM-i aqressiyanın sadəcə impulsiv reaksiya deyil, vəziyyətdən və şəxsiyyət faktorlarının qarşılıqlı təsirindən meydana gəldiyini göstərir.

Bununla yanaşı, C. Nathan DeWall və C. Mark Chester (2018) vurğulayırlar ki, yaxın münasibətlərdə rədd edilmə və ya itirmə qorxusu zorakılığı "münasibəti qoruma vasitəsi" kimi adlandıraraq normallaşdırmağa və aqressiv davranışların nümayişinə səbəb ola bilər. Bu yanaşma ailədaxili zorakılığın niyə təkrarlanaraq dövrü olaraq davam etdiyini izah edir. Səbəbi isə hər bir epizodun gələcək mexanizmləri gücləndirməsidir. Bu model Banduranın [3] sosial öyrənmə nəzəriyyəsi ilə tamamlana bilər, çünki öyrənmə nəzəriyyəsi aqressiyanın necə mənimsənildiyini izah edir; ÜAM-də aqressiyanın hansı psixoloji situasiyada aktivləşdiyini göstərir. Yəni sosial öyrənmə aqressiyanın qaynağını, ÜAM isə onun işə düşmə sistemini izah edir. Son olaraq ÜAM ailədaxili zorakılığın dövrü xarakterini izah edərək, onun qıcıqlandırıcı (həyəcan, qəzəb) və əsas faktorlarını (genetik meylilik) birləşdirir [6].

**Bağlanma nəzəriyyəsi**

John Bowlby [5] tərəfindən irəli sürülən bağlanma nəzəriyyəsi empirik olaraq Mary Ainsworth və həmkarları (1978) tərəfindən inkişaf etdirilmişdir. Nəzəriyyə erkən uşaqlıq dövründə əsas qayğı verən şəxslə qarşılıqlı münasibətin fərddə "daxili işləmə modelləri" yaratdığını vurğulayır. Bu modellər fərdin özünə və başqalarına olan davranışını müəyyən edir. Bundan başqa yaxınlıq qurma və təhlükəsizlik kimi anlayışların və münasibətlərdə gözləntilərin formalaşmasında rol oynayır.

Mary Ainsworth və həmkarları tərəfindən bağlanma növlərinin empirik şəkildə müəyyən olunması üçün "Qəribə Vəziyyət Proseduru" adlı eksperiment həyata keçirilmişdir [1]. Bu tədqiqatlar əsasında bağlanma növləri dörd kateqoriyaya bölünür və uşaq-valideyn qarşılıqlı təsirlərini əks etdirir:

- **Güvənli bağlanma:** Uşaq qayğı verən şəxsi təhlükəsiz baza olaraq qəbul edir, sərbəst şəkildə kəşf edir, ayrılan zaman

xəfif stress yaşayır və qayğı verən geri dönən zaman tez sakitləşir və oyun oynamağa davam edir. Qayğı verən şəxsin ardıcıl mövcudluğu və həssaslığı uşağın təhlükəsizlik hissini gücləndirməsi və emosional tənzimlənmə bacarıqlarının formalaşmasına şərait yaradır. Bu da təhlükəsiz bağlanmanın inkişafında başlıca rol oynayır.

- **Təşvişli bağlanma:** Qayğı verən şəxsin qeyri-sabit reaksiyaları nəticəsində yaranır. Uşaq ayrılıq anından öncə narahatlıq yaşayır və yapışqan davranır. Qayğı verən şəxs geri gələn zamansa qəzəb və ya passivlik göstərir. Bu bağlanmada yüksək səviyyədə tərk edilmə qorxusu və emosional sabitlik mövcud olur. Bu bağlanma zamanı yetkinlik dönəmlərində olan şəxs partnyordan ifrat səviyyədə yaxınlıq və təsdiq olunma tələb edir.
- **Qaçınan bağlanma:** Qayğı verən şəxsin emosional baxımdan əlçatmaz, rədd edən və ya həssas olmayan davranışlarının olması ilə səciyyələnir. Bu bağlanmada uşaq emosiyalarını sıxışdırmağa başlayır. Yəni ki, emosional ehtiyaclarının ifadə olunmasının nəticəsiz olduğunu öyrənir və bağlanma sistemini “deaktivasiya” edir. Nəticə olaraq da ayrılıq zamanı az stress yaşayır və qayğı verən şəxs geri gələn zaman ondan uzaqlaşır və emosional məsafəni saxlayır. Bu stilə sahib olan şəxs yetkinlikdə mübahisə zamanı geri çəkilmə, yaxınlıqdan qaçma və nəzarət ilə münasibəti idarə etmə kimi meyllərə sahib ola bilər.
- **Nizamsız bağlanma:** Bu bağlanma stili əsasən qayğı verən şəxsin travmatik, qorxuducu və ya abüziv şəkildə qayğı göstərməsindən meydana gəlir. Şəxs qayğı verəni həm təhlükəsizlik kimi, həm də qorxu obyekti olaraq görür. Nəticə etibarilə uşaqda bağlanma sistemi ilə müdafiə sistemi arasında qarışıqlıq meydana gəlir. “Qəribə Vəziyyət Proseduru”nda bu tipli uşaqlarda donub qalma, qorxu, təzadlı yaxınlaşma-qaçma kimi davranışlar müşahidə olunub. Bu tipli davranışlar emosional tənzimləmədə çətinlikləri və psixopatologiyadakı risklərlə əlaqələndirilmişdir [11,14]. Bu bağlanma stilinə sahib olan şəxslər yetkinlik dönəmlərində münasibətlərdə qorxu ilə yaxınlıq ehtiyacını paralel şəkildə aktivləşdirə bilər. Bu da yüksək səviyyədə münaqişə və aqressiya riski ilə əlaqələndirilə bilər.

Təşvişli və qaçınan bağlanma stillərinin olması abüziv münasibətlərdə həm qurban, həm də zorakılıq törədən olma riskini artırır [12]. Bağlanma çərçivəsində zorakılıq dövrün davamlılığı belə izah olunur: zorakılıq epizodları ilə barışıq və emosional yaxınlaşma mərhələləri növbələşərsə bu zaman güclü emosional bağ yaranır və zorakılıq dövr davam edir.

Bağlanma tiplərinin sabitliyi və universal olması empirik olaraq sorğulanmışdır. Mədəniyyətlərarası meta-analiz göstərmişdir ki, bağlanma növləri cəmiyyətlərə görə fərqlənə bilir. Məsələn, Güvənli bağlanma universal olsa da, Yaponiya nümunələrində qaçınan tip nadir, təşvişli bağlanma yüksək, Almaniyada isə qaçınan bağlanma nisbətən yüksək çıxmışdır [15]. Bu nəticələrə əsasən deyə bilərik ki, bağlanmanın formalaşması təkcə bioloji əsaslarla deyil həm də sosial- mədəni kontekstədir. Bununla da bağlanmanın sabit olmadığı və həyati təcrübələr və müdaxilələrlə dəyişə biləcəyi ortaya çıxmışdır [4].

**Travma və Dövr modelləri**

Ailədaxili abüziv münasibətlərdə travma və dövr modelləri zorakılığın dinamikasını izah etmək üçün istifadə olunan ən təsirli yanaşmalardan biridir. Bu modellər zorakılığı sadəcə bir hadisə olaraq yox, zaman keçdikcə təkrarlanan, öz-özünə davam edən bir proses olaraq dəyərləndirməyə və nəsildə-nəslə keçmə mexanizmlərini anlamağımıza imkan verir. Lenore Walker [16] tərəfindən irəli sürülən “Zorakılıq dövrü” modelinə əsasən abüziv münasibətlər üç mərhələ ilə izah olunur:

- **Gərginlik mərhələsi:** Bu mərhələdə emosional gərginlik tədricən artır. Zorakılığı törədən tərəf əsəbi, qəzəbli və narahat olur və kiçik münaqişələrə, tənqidlərə başlayır. Qurban tərəf isə gərginliyi azalmaq üçün “hər şeyi düzəltməyə” çalışır, öz ehtiyaclarını geri plana atır və mübahisədən qaçmaq üçün əlindən gələni etməyə

çalışır. Bu mərhələdə əsas qorxunun, narahatlığın və "növbəti dəfə nə baş verəcək?" gözləntisi ilə səciyyələnir.

- **Zorakılıq epizodu:** Gərginlik üst səviyyəyə çatır və partlayış baş verir. Bu epizodda zorakılıq psixoloji, cinsi, fiziki və ya iqtisadi olmaqla özünü büruzə verir. Walker-in müşahidələrinə əsasən bu mərhələ zamanı zorakılıq törədən şəxs özünü "nəzarətdən çıxmış" kimi hiss edir və "mən anlaya bilmədim nə baş verdi" kimi şeylər deyir.
- **"Bal ayı" mərhələsi:** Zorakılıq epizodundan sonra isə zorakılıq törədən şəxsin üzür istəməsi, hədiyyələr alması, sevgi ifadələri və "dəyişəcəyəm" deməsi kimi vədləri başlayır. Bu mərhələ qurbanı münasibətdə saxlayan ən güclü mexanizmdir, çünki bunlar ümid yaranmasına səbəb olur. Walker bildirir ki, zaman keçdikcə bu mərhələ daha da qısalır və ya tamamilə yox olur, zorakılıq isə daha da şiddətlənir və tez-tez olmağa, təkrarlanmağa başlayır.

Bu model qurbanların münasibətdən çıxa bilməmə səbəbini psixoloji baxımdan izah edir. Dövrün təkrarlanması qurbanı "uşaq kimi" aslı vəziyyətə salır və "bal ayı" mərhələsi emosional bağlanmanın güclənməsinə səbəb olur [16].

**Dutton-un travmatik mənşə modeli**

Donald G. Dutton zorakılığın yalnız vəziyyətdən aslı olmadığını, şəxsiyyətin formalaşmasında yaşadığı travmatik təcrübələrlə əlaqələndirir [8,9]. Onun modelinə görə, uşaqlıq dövründə üç əsas travma mənbəyi abüziv kişilərdə (və bəzi qadınlarda) "intim qəzəb" yaradır:

- valideynin zorakılığına şahid olmaq
- alçaldıcı və utandırıcı tərbiyə
- güvənsiz bağlanma stili

Dutton-a görə travmaların yetkinlikdə nəzarət ehtiyacına ,utancın sıxışdırılmasına və emosional partlayışların yaranmasına səbəb olur [9]. Travma şəxsin "özünü qoruma" mexanizminin formalaşmasına və intim münasibətlərindəki ən kiçik təhdid qarşısında belə güclü reaksiyalar göstərməsinə səbəb olur.

**Müasir empirik yanaşmalar**

Son illərdə aparılan sistematik icmallar ailədaxili zorakılığı fərqli bucaqlardan analiz edir. Araşdırma uşaqlıq dövründə ailədaxili zorakılığa məruz qalma ilə yetkinlik zamanı intim partnyor zorakılığı (İPZ) arasındakı əlaqəni daha dəqiq ölçərək, psixoloji mexanizmlərini aydınlaşdırmışdır.

- **Emosional zorakılığın intergenerativ ötürülməsi:** Osborne və həmkarları tərəfindən çap olunan meta-analiz nəticələri göstərir ki, uşaqlıq dövründə emosional zorakılığa məruz qalmaq yetkinlik dövründə emosional İPZ törətmənin ən güclü proqnostik dəyərə malik olduğunu göstərmişdir. Cinslər üzərində əhəmiyyətli dərəcədə fərq müşahidə olunmamışdır və effekt olçüləri orta səviyyədədir. Əsas məqam burasındadır ki, emosional zorakılıq fiziki zorakılıqdan daha güclü nəsildən-nəsilə keçmə təsirini göstərmişdir. Nəticəyə əsasən zorakılığı sadəcə davranış modeli kimi deyil, emosional və koqnitiv sxemlərin örtülməsi kimi anlamaq lazımdır [12].
- **Identitet diffuziyası: Strukturlaşmış özün itməsi:** Gelinas apardığı tədqiqatında şəxsiyyətlə arası travma ilə yetkinlik İPZ-ı arasındakı əlaqədə mediator olaraq identite diffuziyasını təyin etmişdir. Yəni uşaqlıq dövründə məruz qalınan (cinsi, fiziki, psixoloji zorakılıq, laqeyidlik) zorakılıq nəticəsində yaranan şəxsiyyətlər arası travma ilə yetkinlikdə İPZ-ı arasında əlaqə identitet diffuziyası ilə izah olunur. Bu bizə göstərir ki, travma sadəcə emosional disregulasiya yaratmır, o şəxsin özünü davamlı və sabit sistem kimi qavramasının zəifləməsinə səbəb olur. Kimlik də baş verən qeyri-sabitlik münasibətlərdə həddindən çox aslılıq, qorxu və nəzarət ehtiyacını gücləndirməyə gətirib çıxara bilər [10].
- **Erkən maladaptiv sxemlər: Koqnitiv mexanizm:** Pilkington və həmkarları tərəfindən aparılan sistematik icmal və meta-analiz uşaqlıq travması ilə intim partnyor zorakılığı arasındakı əlaqədə erkən maladaptiv sxemlərin əhəmiyyətli vasitəçi rol oynadığını göstərmişdir. Əsasən də "tərk edilmə", "etibarsızlıq", "sui-istifadə", "emosional laqeydlik", "tabe olma", "sosial izolyasiya", kimi sxemlərin

travmatik uşaqlıq təcrübələri ilə daha yüksək səviyyədə əlaqələndirilmişdir. Bu sxemlər yetkinlik dövründə insanlar arası situasiyaların təhlükə kimi qiymətləndirilməsinə, hiperhəssaslıq və müdafiə reaksiya nümunələrinin aktivləşməsinə səbəb olur. Bu da aqressiv və nəzarətedici davranışlara yol açır [13].

Müasir empirik yanaşmalar bizə göstərir ki, ailədaxili zorakılıq sadəcə sosial öyrənmə modeli ilə izah etmək yetərli deyil. Travma daxili iş modelləri, şəxsiyyət strukturu, emosional tənzimləmə sistemi ilə birləşərək yetkin münasibətlərdə aktivləşir.

**Nəticə**

Ailədaxili münasibətlər təsadüfən və ya yalnız fərdi xarakterdən qaynaqlanmır. Bu münasibətlər çoxsəviyyəli psixoloji mexanizmlərin – sosial öyrənmə, aqressiya nəzəriyyələri, bağlanma mexanizimləri, travmatik təcrübələr və erkən maladaptiv sxemlərin qarşılıqlı təsiri əsasında yaranan sistemli bir fenomendir. Bu mexanizmləri obyektiv modellərə (Ümumi Aqressiya Modeli, bağlanma nəzəriyyəsi, zorakılıq dövrü) əlavə edən fenomoloji yanaşma zorakılığın subyektiv mahiyyətini ön plana çəkir. "Sevgi ilə qarışıq qorxu", "özünü itirmə", "məhv olma hissi" kimi qurbanın yaşadığı, "nəzarət ehtiyacı", "intim qəzəb" kimi zorakılıq törədən şəxsin yaşadığı təcrübələri yalnız statistik və ya davranış səviyyəsində deyil, daha dərin olan insan təcrübəsi kimi başa düşülməlidir. Nəticədə, ailədaxili abuziv münasibətlər nəsillər arası travmanın, öyrənilmiş davranış nümunələrinin və daxili iş modellərinin birləşməsidir. Bu tip mexanizimlər aradan qaldırılmazsa cəmiyyətin psixoloji rifahı daima təhdid altında olacaq. Fenomenoloji yanaşma isə bu problemin həll olunmasında vacib vasitədir. Burada zorakılığa sadəcə "səbəb-nəticə" olaraq deyil, yaşayan insanın daxili dünyası kimi baxılır və dəyişiklik üçün real yollar araşdırılır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Ainsworth M.D.S., Blehar M.C., Waters E., Wall S. Strange Situation Procedure [Dataset]. 2014. Doi: 10.1037/t28248-000
2. Allen J.J., Anderson C.A., Bushman B.J. The General Aggression Model. Current Opinion in Psychology, 2018;19: 75–80. Doi: 10.1016/j.copsyc.2017.03.034
3. Bandura A. Social learning theory. Prentice Hall. 1977.
4. Booth-LaForce C., Roisman G.I. (Eds.). The handbook of attachment: Theory, research, and clinical applications (3rd ed.). Guilford Press. 2021.
5. Bowlby J. Attachment and loss: Vol. 1. Attachment. Basic Books. 1969.
6. Chester D.S., DeWall C.N. The roots of intimate partner violence. Current Opinion in Psychology, 2018;19:55–59. Doi:10.1016/j.copsyc.2017.04.009
7. Dodge K.A., Bates J.E., Pettit G.S. Mechanisms in the Cycle of Violence. Science, 1990;250(4988):1678–1683. Doi:10.1126/science.2270481
8. Dutton D.G. Traumatic origins of intimate rage. Aggression and Violent Behavior, 1999;4(4): 431–447. Doi:10.1016/S1359-1789(98)00027-5
9. Dutton D.G. The abusive personality: Violence and control in intimate relationships (2nd ed.). Guilford Press. 2007.
10. Gélinas J., Claing A., Dugal C., Savard C., Daspe M.-È., Péloquin K., Godbout N., Brassard A. Intergenerational transmission of childhood interpersonal trauma in adults entering therapy for intimate partner violence: The role of identity diffusion. Child Abuse & Neglect, 2025;161: 107258.Doi:10.1016/j.chiabu.2025.107258
11. Mikulincer M., Shaver P.R. Attachment in adulthood: Structure, dynamics, and change. Guilford Press. 2007.
12. Osborne K., Munasinghe S., Page A. The Intergenerational Transmission of Emotional Intimate Partner Violence: A Systematic Review and Meta-Analysis. Journal of Family Violence. 2025. Doi: 10.1007/s10896-025-00871-8
13. Pilkington P.D., Noonan C., May T., Younan R., Holt R.A. Early maladaptive schemas and intimate partner violence victimization and perpetration: A

systematic review and meta-analysis. Clinical Psychology & Psychotherapy, 2021;28(5):1030–1042. Doi: 10.1002/cpp.2558
14. Solomon J., George C. The measurement of attachment security in infancy and childhood. In J. Cassidy & P. R. Shaver (Eds.), Handbook of attachment: Theory, research, and clinical applications (pp. 287–316). Guilford Press. 1999.
15. Van IJzendoorn M.H., Kroonenberg P.M. Cross-Cultural Patterns of Attachment: A Meta-Analysis of the Strange Situation. Child Development, 1988;59(1): 147. Doi: 10.2307/1130396
16. Walker L.E. The battered woman. Harper & Row. 1979.
17. Walker M.U. The Cycle of Violence. Journal of Human Rights, 2006;5(1):81–105. Doi:10.1080/14754830500485890
18. World Health Organization. Violence against women prevalence estimates, 2018**.** 2021. https://www.who.int/publications/i/item/9789240022256

**Sevinc Agaveli ALLAHYAROVA**
Associate Professor at the Department of Psychology, Baku State University

**Afaq Arif MAMMADOVA**
Master's student at the Department Psychology, Clinical Psychology, Khazar University

## MECHANISMS OF FORMATION OF INTRAFAMILIAL ABUSIVE RELATIONSHIPS: AN APPROACH AS A PSYCHOLOGICAL PHENOMENON

**Summary**

The article examines the mechanisms of formation of intrafamilial abusive relationships (domestic violence) as a psychological phenomenon. Through phenomenology, the lived experiences of victims and perpetrators are placed at the center. In addition, the subjective meaning, essence of violence, and the way it is constructed in everyday life are analyzed. The main mechanisms of violence identified in the studies are primarily the intergenerational cycle of violence, traumatic attachment, power and control, Bowlby's attachment theory, weakening of self-control, and normalization of violence. The analysis of these mechanisms is carried out on the basis of such theories as the General Aggression Model (GAM) and Dutton's abusive personality model. The article emphasizes the relevance of the problem and provides phenomenologically based recommendations.

**Keywords:** domestic violence, attachment theory, intergenerational transmission, power and control, general aggression model

**Севиндж Агавади АЛЛАХЯРОВА**
Доцент кафедры Психологии Бакинского Государственного Университета

**Афа Ариф МАММЕДОВА**
Магистрант по специальности Клиническая психология, Кафедра психологии, Хазарский Университет

## МЕХАНИЗМЫ ФОРМИРОВАНИЯ ВНУТРИСЕМЕЙНЫХ АБЬЮЗИВНЫХ ОТНОШЕНИЙ: ПСИХОЛОГИЧЕСКИЙ ПОДХОД КАК ФЕНОМЕН

**Резюме**

Статья исследует механизмы формирования внутрисемейных абьюзивных отношений (бытовое насилие) как психологический феномен. С помощью феноменологии в центр внимания ставятся пережитые опыты жертв и насильников. Кроме того, анализируются субъективное значение, сущность насилия и то, как оно конструируется в повседневной жизни. В исследованиях определены основные механизмы насилия: прежде всего цикл межпоколенной передачи насилия, травматическая привязанность, власть и контроль, теория привязанности Боулби, ослабление самоконтроля и нормализация насилия. Анализ механизмов проведён на основе таких теорий, как Общая модель агрессии (ОМА) и модель абьюзивной личности Даттона. В статье подчёркивается актуальность проблемы и даются рекомендации, основанные на феноменологии.

**Ключевые слова:** внутрисемейное насилие, теория привязанности, межпоколенная передача, власть и контроль, общая модель агрессии

**Daxil olub:** 23.02.2026